**Leyla QULİYEVA**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
AMK-nın dosenti,
Ünvan: Bakı, Yasamal rayonu, Ə.Ələkbərov küç: 7
E-mail: leylaquliyeva-80@mail.ru

# ŞƏHİDLƏRİMİZİN XATİRƏSİ ƏBƏDİDİR! (AZƏR RZAYEVİN “BAKI-90” SİMFONİYASI)

***Xülasə:*** *Təqdim olunan məqalədə Azərbaycan xalqının, Vətənimizin ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərə həsr olunan musiqi əsərlərindən söhbət açılır. 20 Yanvar faciəsindən başlayaraq, Xocalı soyqırımı və Dağlıq Qarabağ müharibəsində şəhid olanların əbədiyyətə qovuşaraq canlarını Vətənə fəda etməsi müxtəlif bədii sənət əsərlərinin mövzusuna çevrilmişdir. Belə ki, çox sayda təsviri sənət nümunələri, ədəbi əsərlər, film və musiqi əsərləri yaradılmışdır. Burada Qanlı yanvar hadisələrini ilk olaraq öz əsərində əks etdirən bəstəkar Azər Rzayevin Bakı-90 simfoniyasının geniş təhlili verilmişdir.*
***Açar sözlər:*** *Azər Rzayev, Bakı-90, şəhidlər, simfoniya, 20 yanvar*

Qanlı 20 yanvar hadisələri xalqımızın yaddaşına qara hərflərlə həkk olunan hadisələrdəndir. Məlum olduğu kimi, 1990-ci il yanvar ayının 19-dan 20-nə keçən gecə Bakı şəhərində Sovet ordusu dinc əhaliyə hücum etmiş, xalqa divan tutmuşdur. Nəticədə yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış və itkin düşmüşdür. Qanlı Yanvar hadisəsindən 30 il ötdü...

20 Yanvarda təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı cinayət törədilmişdir. Bu hadisələri lentə alan C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyası “Salnamə” studiyasının operatorlarının qiymətli kadrları əsasında 20 Yanvar hadisələrinə həsr olunmuş filmlər çəkilib. Vahid Mustafayevin “Qanlı Yanvar” bədii filmi hadisələrin 25-ci ildönümünə həsr olunmuşdur və bu ekran əsərinin ərsəyə gətirilməsində beynəlmiləl kollektiv çalışmışdır.

Bədii ədəbiyyatda bu mövzu Bəxtiyar Vahabzadənin “Şəhidlər” və “Larisa”, Məmməd Aslanın “Ağla, qərənfil ağla”, Xəlil Rza Ulutürkün “Qanım bayrağımdadır”, Kəmalə Abıyevanın “Şəhidlər xiyabanı” lirik poemasında, Fikrət Qocanın “Şəhidlər xiyabanı” şeirində və bir sıra müxtəlif janrlı əsərlərdə öz əksini tapmışdır. Təsviri incəsənətdə Mikayıl Abdullayevin “Nakamların dəfni”, Rasim Babayevin “Təcavüz”, Arif Hüseynovun “Qara tağlı natürmort”, Arif Ələsgərovun “20 Yanvar”, İsmayıl İsmayılovun “Haqq tərəzisi”, Oqtay Quliyevin “Matəm”, Bayram Qasımxanlının “Faciələrimiz” rəsmlərini qeyd etmək olar.

Bəstəkarlarımız da yanvar hadisələrinə həsr olunmuş müxtəlif janrlı əsərlər bəstələmişlər. Hər bir yaradıcı insan tarixi hadisələrə münasibətini yaratdığı əsərlər vasitəsi ilə çatdırmağa çalışır. Təbii olaraq Azərbaycan bəstəkarları da Qanlı Yanvar

faciəsindən yan ötə bilməzdilər. Belə ki, 1990-ci ildə bu mövzunu öz əsərində yaşadan ilk Azərbaycan bəstəkarı Azər Rzayev olmuşdur. Daha sonra həmin ildə yazılmış Cövdət Hacıyevin kamera orkestri üçün "Şəhidlər" simfoniyası (VII simfoniya), Sevda İbrahimovanın "Vətən şəhidlərinə" kantatası, Oqtay Kazıminin "Şəhidlər simfoniyası", Ramiz Mustafayevin "Bu qan yerdə qalan deyil" vokal-simfonik poema və "Salatın" oratoriyası, 1991-ci ildə Hacı Xanməmmədovun "Əlimdə sazım ağlar" solist və xalq çalğı alətləri orkestri üçün poeması, 1999-ci ildə Vasif Adıgözəlovun "Qəm karvanı" oratoriyası şəhidlərə həsr olunmuş əsərlər sırasındadır. Həmçinin, Mobil Babayevin "Ağlama torpağım, ağlama" kantatası, Aydın Əzim Kərimoğlunun "Qətl günü" simfonik əsəri, Arif Mirzəyevin "Yanvar mərsiyələri", Sərdar Fərəcovun "Matəm harayları" simfonik lövhəsi və başqa musiqi nümunələrində bəstəkarlarımız heç bir günahı olmayan dinc əhalinin divan tutulmasına, xalqımıza qarşı olan haqsızlığa qarşı çıxış edərək münasibətlərini bildirmişlər.

Bəstəkar Azər Rzayevin 20 Yanvar şəhidlərinə həsr olunmuş "Bakı-90" simfoniyasının əlyazmasında əsərin yazılma tarixi partituranın son səhifəsində qeyd olunub: 29 avqust 1990-ci il. Əsərin premyerası isə həmin ilin noyabr ayında baş tutub.





Bu əsər bəstəkarın yaradıcılığının kamil əsərlərindən biri kimi Azərbaycan musiqi xəzinəsinə dəyərli töhfə kimi qiymətləndirilib. Qanlı yanvar hadisələrinə, şəhidlərimizə həsr olunmuş “Bakı-90” simfoniyası müəllifin yaradıcılığında böyük nailiyyət kimi qeyd olunur. Bəstəkar simfoniya haqqında “*Бакинский рабочий*” qəzetində nəşr olunmuş “*Баку-90-партитура трагедии и надежды*” adlı məqalədə əsərin yaranması ilə bağlı fikirləri ilə bölüşmüşdür: “Kədər hissi, günahsız insanların qurban verilməsi, ideallerın dağılması, işğalçı qüvvələrə olan qəzəb və nifrət o yanvar günlərində qəlbimizdə tam qarışıqlıq yaratmışdır. Şəhidlərin dəfni günü, hökumət evinin qarşısındakı çoxmərtəbəli binanın damından baş verənləri seyr edərək, minlərlə insanın əlləri üstündə son mənzilə yola salınanlar, insan kədərinin dalğası mənə təsir etməyə bilməzdi. Daha sonra kədərə qərq olan insan axınına qoşularaq, onların gözlərində, üzlərində ifadə olunan dərin faciə, ağrı və ümidsizliyi heç zaman unutmaq olmaz. Uzun müddət özümə gələ bilmirdim. Mən hiss edirdim bizim ümumxalq faciəmiz, kədərimiz sanki mənim daxili aləmimi, ürəyimi, bütün fikir və düşüncələrimi əhatə edərək mənə əziyyət verir. Bütün bu daxili gərginliyi mən yalnız musiqi dili ilə ifadə edə bilərdim. Qanlı yanvar gecəsi ilə bağlı düşüncələrim səslərdə, səslər isə melodiyada əks olunmağa başladı.

Mən partiturada hadisələrin faciəli dramaturgiyasını göstərməyə çalışmışam. Simfoniyanın finalında isə xalqın əyilməz iradəsini, qara qüvvələrə qalib çıxaraq gələcəyə inamını, azad – müstəqil olacağını musiqimdə əks etdirmişəm” (9).

Əsər ilk dəfə dinləyicilər qarşısında 1990-cı il noyabr ayının 4-də Azər Rzayevin 60 illik yubiley gecəsində, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında, xalq artisti, professor, gözəl dirijor-interpretator Rauf Abdullayevin rəhbərliyi ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət simfonik orkestrinin ifasında səsləndirilib.

“Bakı-90” simfoniyası proqramlı əsərdir. Əsərin epiqrafı “Xalq yaşayır, gələcək naminə zəhmətə qatlaşır” ifadəsi əsərin əsas ideyasını, inkişaf xəttini və dinamikasını əks etdirir. Simfoniyanın özəyini xalqın müdrikliyi və yaşamaq uğrunda mübarizəsi kimi fəlsəfi ideya təşkil edir.

Simfoniya iki hissəlidir, a-moll tonallığındadır. Bu iki hissə sanki xalqın həyatının iki tərəfini əks etdirir - dinc həyat sürən və dəhşətli hadisələri yaşayıb faciəvi hissləri əks etdirən xalqın obrazlarını. Əsərin musiqi dilində leytritm və leyttembrdən istifadə qabarıq şəkildə hiss olunur. Bununla bəstəkar əsərin tamlığına və hissələr arasında ümumi bədii ideyanın saxlanılmasına nail olur. “Bakı-90” simfoniyasının I hissəsində A.Rzayev illər öncə yazdığı və çox dəyər verdiyi “Orqan, altı litavr və kamera orkestri üçün poema” (1970) əsərinin musiqi materialından istifadə etmişdir.

I hissə sonata formasında yazılıb və Giriş (Andante) ilə başlayır. Artıq girişin ilk akkordlarından baş verəcək hadisələri əks etdirən həyəcanlı musiqi aşağı registrdə tutqun tembr vasitəsilə təqdim olunur. Burada aram tempdə simli alətlərə tapşırılan təmkinli akkordların səslənməsi və zərb alətinin “qlissando”su hadisələrin təsvirini dinləyicilər qarşısında canlandırır. Girişdən sonra verilən əsas partiyanın musiqisi xalqın adi həyat tərzini, gündəlik ritminin ümumi portretini yaradır. Lakin burada musiqinin gərgin və dinamik verilməsi sanki gələcək hadisələrdən xəbər verən nara-

hatlığı təsvir edir. Əsas partiya (*Presto*) litavr (timpani) alətinin solosu ilə başlayır (bunu əsas partiyanın I elementi kimi qeyd etmək olar).

**Nümunə №1**




Litavr alətinə tapşırılan mövzunun fonunda melodiya (II element) bir-birinin ardınca müxtəlif alətlər qrupunun ifasında təqdim olunur. Belə ki, mövzu (II element) simli alətlərdə başlayır, sonra nəfəs alətlərinə və kulminasiya nöqtəsində zərb alətlər qrupuna ötürülür.

**Nümunə №2**




Burada bəstəkar zərb alətləri qrupuna böyük əhəmiyyət vermişdir. Əsas partiyanın sonluğu yalnız zərb alətlərinə tapşırılıb və melodiyanı ksilofon aləti ifa edir. Get-gedə gərginlik azalır və "***pp***"-da köməkçi partiyaya keçid baş verir.

**Nümunə №3**






Köməkçi partiyada (*Allegretto*) ingilis *cornosu* və tenor-saksafonun solosu obrazlar aləminin ümumidən fərdiliyə yönəlməsi kimi qəbul olunur. Bu mövzu dərin lirika və nəqlediciliyi ilə fərqlənir. Eyni zamanda köməkçi partiya olduqca ahəngdar və melodikdir.

**Nümunə №4**




Bəstəkarın bir çox simfonik əsərlərində, adətən gərgin inkişaf edən bölməsində polifonik üsluba müraciət etməsini xüsusi qeyd etmək lazımdır. I hissənin işlənməsinin mərkəzində fuqatodan istifadə olunmuşdur. Fuqato əsas və köməkçi partiyaların mövzusu əsasında qurulub.

I hissənin repriz bölməsi əsas partiyanın üzərində qurulub. Girişin musiqi materialının təkrar olunması bu hissəni sanki çərçivəyə almış olur.

II hissə forma baxımından daha çox muğam improvizasiyalarının inkişaf prinsipinə yaxındır. Bu hissəni şərti olaraq iki bölməyə ayırmaq olar: baş verən dəhşətli hadisələr, tankların yürüşü və qəmli intonasiyalarla dolu kütləvi dəfn mərasiminin təsviri.

Klarnet (in B) alətinin solosu ilə başlanan və daha sonra fleyta alətinə ötürülən mövzu qüssəli, kədərli və daxili narahatçılığı təsvir edən melodiya əsasında qurulub.

**Nümunə №5**




Mövzunun sonrakı inkişafında sekunda intervallı ibarələrin istifadə olunması nalə, ah çəkmə, ağlama, sanki övladını itirən ananın fəryadını təsvir edir (melodiyanın yuxarıdan aşağıya istiqamətdə hərəkəti və minor tonallığında verilməsi onu “lamento” ariyasının xüsusiyyətləri ilə müqayisə etməyə imkan yaradır).

Bu hissənin musiqisində bəstəkar hətta güllələrin atılmasını təqlid edən səslənməyə nail olmuşdur. Orkestrdə əvvəlcə simli alətlərin, daha sonra tədricən nəfəs alət-

lərinin əlavə olunması ilə bas ostinatosu üzərində zərb alətlərində tankların yürüşünü təsvir edən musiqi səslənir.

Əsərin kulminasiya nöqtəsində faciəni daha da təsirli edən bir epizod - “Qurani-Kərim”in “Bəqərə” surəsindən beşinci ayənin (azanın) oxunması simfonik musiqimizdə ilk dəfə işlədilmişdir və əsərin bədii ideyasını daha da qabarıq şəkildə əks etdirir.

**Nümunə №5**




Xanəndəyə tapşırılmış (İlk ifada xalq artisti Mənsum İbrahimov, sonralar əməkdar artist Qəzənfər Abbasov və başqaları çıxış etmişlər) “Bayatı Qacar” muğamının “Zəmin xarə” şöbəsi üstündə səhnə arxasından oxunan azan, sanki minarədən səslənən azanı xatırladır.



Simfoniya I hissənin giriş bölməsinin musiqi materialı ilə bitir. Bu da təsadüfi deyildir. Bəstəkarın işıqlı gələcəyə inamını, xalqın mübarizliyini və heç bir qara qüvvələrin onun müqavimətini qıra bilməyəcəyini ifadə edir.

Müəllifin simfoniyada istifadə etdiyi rəngarəng orkestr palitrası dinləyicilərdə böyük təəssürat oyatmışdır. Sanki yanvar hadisələri göz önündə kinolent kimi canlanır. A.Rzayevin Vətənə bağlılığı, millətinə hədsiz məhəbbəti, baş verən hadisələrə vətəndaş mövqeyi böyük təsir qüvvəsinə malik olan simfoniyanın yaranmasına səbəb olmuşdur.

"Əsərin epiqrafında qeyd olunduğu kimi öz gələcəyi uğrunda mübarizə aparan xalq əbədidir. Burada fəlsəfi ideyanın əsası faciəyə qarşı hirsli müqavimətin-müdrikliyə, kədərin isə mübarizliyə yönəlməsindən ibarətdir. Təbii ki, bu ideyanın müəllif yanaşması yalnız simfonik partiturada öz əksini tapa bilərdi. Orkestrin ayrı-ayrılıqda hər bir aləti-insanların, xalqın səsi kimi qələmə verilir" (7).

"Bakı-90" simfoniyası 30 il keçməyinə baxmayaraq öz aktuallığının itirməyib. Əsəri bu gün torpaqlarımız uğrunda, Vətən uğrunda, "Qarabağ" uğrunda şəhid oğullarımıza həsr olunmuş bir oda kimi qəbul etmək olar.

Son illər 20 yanvar faciəsi və şəhidlərə həsr olunan musiqi əsərlərinin arasında Arif Mirzəyevin "Yanvar passionları" matəm messası, Nazim Quliyevin "Şəhidlər" operası, Oqtay Rəcəbovun "Çingiz" oratoriyası, Zabitə Məmmədovanın solist, xor və orkestr üçün "Elegiya" əsəri, Tahir Əkbərin qiraətçi, solistlər, xor və orkestr üçün "Hər birimiz Mübarizik, Fəridik" balladasını qeyd edə bilərik.

Heç bir günahı olmayan xalqın dinc sakinlərinin qətli ilə nəticələnən 20 yanvar hadisəsindən 30 il keçib. O dövrdə Azərbaycana qarşı aparılan təcavüzkar siyasətə dözməyən, müstəqilliyi və azadlığı uğrunda canından keçməyə hazır olan xalqımız həmin gün əyilməzliyini nümayiş etdirdi. Vaxt ötəcək lakin bu hadisə heç zaman yaddaşlardan silinməyəcək və yeni sənət əsərlərinin yaranmasına zəmin yaradacaq.

**ƏDƏBİYYAT:**


1. Alıyev T. 1990-cı il - Qanlı Yanvar izləri: poema. B.: Yeni Poliqrafist MMC, 2011, 151 s
2. Azəri L. Sənətdə yaşayan qan yaddaşı. // "Mədəniyyət" qəzeti. 2015, 16 yanvar.
3. Quliyeva L. Azər Rzayevin həyat və yaradıcılığı. Metodik vəsait. B.: 2016, 34 s.
4. Mükərrəmoğlu M. 20 Yanvarı yaddaşlarda yaşadan əsərlər. // "Xalq" qəzeti. 2017, 14 yanvar.
5. Təhmirazqızı S. Unutmaq olarmı sizi, şəhidlər? Qanlı Yanvar musiqi əsərlərimizdə. // "Mədəniyyət" qəzeti. 2011, 19 yanvar.
6. Fərəcova Z. Musiqi haray çəkəndə... // "Azərbaycan" qəzeti. 2019, 19 yanvar.
7. Багирова А. Баку-90 музыка памяти. // Газ. "Баку", 11 января, 1991 г.
8. Гусейнова Н. Отражение событий 20 января 1990 года и Ходжалы в культуре и искусстве Азербайджана. // "Konservatoriya" jurnalı 2020 №1-2 (47) s. 116-127
9. Рзаев А. Баку-90-партитура трагедии и надежды. // Газ. "Бакинский рабочий" 19 января, 1996 г.

**Лейла ГУЛИЕВА**
Доцент АНК
Доктор философии по искусствоведению

**ВЕЧНАЯ ПАМЯТЬ ШЕХИДАМ!**
**СИМФОНИЯ «БАКУ-90» АЗЕРА РЗАЕВА**

***Резюме:*** *В представленной статье рассматриваются произведения, посвященные Шехидам, пожертвовавшие своими жизнями в борьбе за единство и освобождение нашей Родины. Начиная с трагедии «Кровавый январь», во время Ходжалинского геноцида и на войне в Нагорном Карабахе тысячи людей отдали свою жизнь и стали шехидами ради независимости родного Азербайджана. Образ и память о шехидах нашли своё отражение в разных областях искусства. Были созданы высокохудожественные произведения в живописи, в литературе, в кино и в музыке. В статье представлен анализ Симфонии «Баку-90» Азера Рзаева, которая является первым музыкальным произведением, посвященным шехидам 20 января.*
***Ключевые слова:*** *Азер Рзаев, Баку-90, шехиды, симфония, 20 января*

**Leyla GULIYEVA**
PhD in Art,
Associated Professor of ANC

**ETERNAL MEMORY OF THE MARTYRS!**
**AZER RZAYEV’S “BAKU-90” SIMFONY**

***Summary:*** *This article refers to works dedicated of the martyred who gave the is lives for liberty of our Motherland. During the tragedy of "Bloody January", the Khojaly genocide and the war in Nagorno-Karabakh, thousands of people gave their lives and became martyrs for the independence of native Azerbaijan. Memories of our martyred and soldiers influence of many kinds of arts. In this way a lot of remarkable poems, paintings, movies and music works were created. In the article analyzed symphony “Baku-90” writer by Azer Rzayev is the first musical composition devoted to martyres of 20 January.*
***Keywords:*** *Azer Rzayev, “Baku-90”, martyr, symphony, 20 January*

**Rəyçilər:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Akif Quliyev
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Cəmilə Mirzəyeva